**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlayazması hüququnda*

**GÜLƏHMƏDZADƏ SAMİR FƏRMAN OĞLU**

# BANK FƏALİYYƏTİNİN STRATEJİ PLANLAŞDIRILMASINDA AUDİTİN ROLU

**İxtisas: 5303.01 – «Mühasibat uçotu»**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

**Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Mühasibat uçotu və audit" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Yaqubov Sakit Məmədi oğlu**
İqtisad elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Abbasov Qəzənfər Əli oğlu**
İqtisad elmləri doktoru, professor

**Ziyadxanov Nofəl Ziyadxan oğlu**
İqtisad elmləri namizədi

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

Dissertasiyanın müdafiəsi 23 sentyabr 2016-cı il saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin FD 02.052 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin Dissertasiya Şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____ " avqust 2016-cı il tarixində göndərilmişdir.

**FD.02.052 Dissertasiya Şurasının elmi katibi, i.e.n.** **S.A.Abbasova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasıyasında ölkə iqtisadiyyatının şaxələndirilməsi və onun innovasiya yönümdə inkişafı dövlətimizin strateji hədəfi kimi müəyyənləşmişdir. Təcrübə göstərir ki, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması və onun çoxtərəfli inkişafı uyğun bank sistemi olmadan mümkün deyildir. Sosial-iqtisadi inkişaf sahəsində müəyyənləşdirilmiş strateji hədəflər çərcivəsində ölkənin bank sistemi perspektivdə mühüm innovasiya sektoruna çevrilməli və onun innovasiya xarakterli iqtisadiyyatın formalaşdırılmasında rolu artmalıdır. Ölkənin sosial-iqtisadi inkişafının konseptual xarakterli hədəfləri içərisində Azərbaycan iqtisadiyyatının strateji maraqlarına uyğun müasir rəqabət qabiliyyətli bank sektorunun formalaşdırılması məsələsi də mühüm yer almışdır. Bu cür yanaşma ölkədə bank sektorunun yeni inkişaf modelinin formalaşdırılmasını, onun sabitliyinin təmin edilməsini, iqtisadiyyatın müxtəlif sahələrinin maliyyələşdirilməsində bankların rolunun artırılmasını, strateji planda keyfiyyət amillərinə üstünlük verilməsini və s. zəruri edir.

Bank sektorunda risk yönümlü nəzarətin geniş miqyasda tətbiqi üçün ilk növbədə müvafiq konsepsiyanın işlənib hazırlanması, banklarda riskləri idarə etmək məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi əsas risk kateqoriyalarının qiymətləndirilməsi üçün yeni metodoloji yanaşmanın, daxili nəzarətin və risklərin idarəetmə sisteminin formalaşdırılması tələb olunur. Belə şəraitdə kommersiya banklarının fəaliyyətində strateji planlaşdırmanın inkişafı və auditin rolunun gücləndirilməsi aktual məsələlərdən biri kimi diqqəti cəlb edir. Təcrübə göstərir ki, kommersiya banklarının səmərəli fəaliyyəti və bazarda strateji mövqeyinin qorunub saxlanması daha çox strateji planlaşdırmanın və bank daxili planlaşdırmanın necə təşkilindən asılıdır. Bunlarla yanaşı bank nəzarəti üzrə Bazel Komitəsinin tövsiyyələrinin dünyanın və ölkənin bank təcrübəsində tətbiq edilməsi bu məsələnin aktual olduğunu deməyə əsas veririr.

Müasir dövrdə kommersiya banklarını onların fəaliyyətlərinin strateji planlaşdırması deyil, daha çox operativ tərəfləri düşündürür. Bazar iqtisadiyyatının inkişafı və maliyyə bazarında rəqabətin güclənməsi şəraitində bankların fəaliyyətində strateji planlaşdırmanın təşkili və ondan müntəzəm istifadə edilməsini tələb edir. Artıq rəqabət yalnız bank məhsulları və xidmətlərində deyil, həm də planlaşdırma mexanizmində, risk və qeyri-müəyyənlik şəraitində düzgün idarəetmə qərarlarının qəbul edilməsinə imkan verən strateji inkişaf hədəflərinin dəqiq müəyyənləşdirilməsində baş verir.

Beləliklə, bütün bu qeyd edilənlər tədqiqat mövzusunun aktuallığını və praktik əhəmiyyət kəsb etdiyini göstərir və dissertasiya mövzusu bunların konteksində əsaslandırılmışdır.

**Problemin öyrənilmə səviyyəsi:** Strateji planlaşdırmanın nəzəri və metodoloji tərəflərinin araşdırılmasına çoxsaylı elmi tədqiqat işləri həsr olunmuşdur. Xarici ölkələrin bank təcrübəsində strateji planlaşdırmanın və onun auditinin təşkili məsələləri geniş tətbiq edildiyindən təbii ki, bu işlərin əksəriyyəti xarici ölkələrin tədqiqatçılarının payına düşür. Tədqiq edilən problemin bu və ya digər tərəflərinin araşdırılmasına xarici ölkələrin alimlərindən - İ.Ansoff, N. Bakster, T.Berrell, X.U.Deriq, P.Druker, F.Kotler, F.Porter, Norton, Kaplan, Н.А.Тысячникова, Ю.Н.Юденков, В.Д. Дорофеев, Т.Ю, Морозова, Т.Н. Адамов və s. əsərlərində geniş rast gəlinir.

Ölkənin bank təcrübəsində strateji planlaşdırmadan istifadə səviyyəsinin zəif olması səbəbindən onun nəzəri-metodoloji və praktiki aspektlərinin araşdırmasına kifayət qədər diqqət yönəldilməmişdir. Lakin buna baxmayaraq bu problemin bəzi tərəfləri, xüsusilə banklarda auditin təşkili ilə bağlı məsələlər ölkənin iqtisadçı alimlərindən - Z.Ə.Səmədzadə, V.Növruzov, İ.M Abbasov, S.M. Səbzəliyev, Q.Ə.Abbasov, S.Y.Müslümov, D.A. Bağırov, Z.F.Məmmədov, M.M.Bağırov və s. əsərlərində toxunulmuşdur.

**Tədqiqatın məqsədi və vəzifəsi:** Dissertasiya işinin məqsədi bank fəaliyyətinin strateji planlaşdırmasında auditin rolunu, onun nəzəri-metodoloji və praktiki tərəflərini araşdırmaq və onun təkmilləşdirilməsi üzrə əsaslandırılmış təklif və tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir.

Məqsədə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

-bankın idarə edilməsi və inkişafının mühüm komponenti kimi strateji planlaşdırmanın rolunu araşdırmaq;

- beynəlxalq təcrübə əsasında bankın strateji planlaşdırılmasında auditin rolunun gücləndirilməsi zəruriliyini əsaslandırmaq və təşkili mərhələlərini müəyyənləşdirmək;

- Azərbaycanın bank sektorunun inkişafının müasir vəziyyətini, onun inkişaf xüsusiyyətlərini təhlil etmək və strateji planlaşdırmanın auditinin müasir tələblərini müəyyənləşdirmək;

- banklarda korporativ idarəetmənin təşkili standartlarını və beynəlxalq təcrübəni öyrənmək və ölkənin bank təcrübəsində tətbiqi imkanlarını əsaslandırmaq;

- bankda strateji məqsədlərin nəticəliliyinin qiymtələndirilməsi üçün balanslaşdırılmış göstəricilər sisteminin tətbiqi zəruriliyini əsaslandırmaq;

- banklarıda strateji risklərin idarəedilməsi və strateji planlaşdırmanın monitorinqinin və auditinin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti:** Kommersiya bankları (o cümlədən, "Kapital Bank" ASC).

**Tədqiqatın predmeti** kommersiya banklarının fəaliyyətinin strateji planlaşdırılmasının formalaşdırılması və onun auditinin həyata keçirilməsi prosesində yaranan sosial-iqtisadi münasibətlərin məcmusudur.

**Tədqiqat işinin elmi yeniliyi:**

- bank fəaliyyətinin strateji planlaşdırılmasının nəzəri əsasları təhlil edilmiş və bankın rəqabətqabliyətliyinin yüksəldilməsində strateji planlaşdırmanın rolunun vacibliyi əsaslandırılmışdır;
- banklarda strateji planlaşdırmanın təşkili mərhələləri dəqiqləşdirilmiş və xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- strateji planlaşdırmanın formalaşdırılmasına, onun fəaliyyət səmərəliliyinə təsir edən daxili və xarici amillər təsnifatlaşdırılmışdır;
- beynəlxalq təcrübə əsasında bankın strateji planlaşdırılmasında auditin rolunun gücləndirilməsi zəruriliyi əsaslandırılmış və onun təşkili mərhələləri göstərilmişdir;
- Azərbaycanın bank sektorunun inkişafının müasir vəziyyəti təhlil edilmiş və strateji planlaşdırmanın auditinin müasir tələbləri müəyyənləşdirilmişdir;
- banklarda korporativ idarəetmənin təşkili standartları və beynəlxalq təcrübə öyrənilmiş və ölkənin bank təcrübəsində tətbiqi imkanları əsaslandırılmışdır;
- bankın strateji məqsədlərinin nəticəliliyinin qiymtələndirilməsi üçün balanslaşdırılmış göstəricilər sisteminin tətbiqi zəruriliyi əsaslandırılmışdır;
- banklarda strateji risklərin idarəedilməsi və strateji planlaşdırmanın monitorinqinin və auditinin təkmilləşdirilməsi istiqamətləri təklif edilmişdir.

-bankın strateji planlaşdırılması istiqamətlərinə operativ şəkildə vacib dəyişklikləri həyata keçirməyə imkan verən balanslaşdırılmış göstəricilər sistemi əsasında monitorinq sisteminin qurulması təklif edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktili əhəmiyyəti:** Tədqiqat prosesində əldə edilən nəzəri, metodiki və praktiki nəticələrin iqtisadiyyatın və bank xidməti bazarının dinamik dəyişdiyi şəraitdə bank fəaliyyətinin starteji planlaşdırılması metodlarının işlənib hazırlanmasında, onun auditinin təşkilinin və monitorinqinin beynəlxalq standartlara uyğunlaşdırılması, həmçinin strateji risklərin qiymətləndirilməsi metodlarının təkmilləşdirilməsi istiqamətlərinin

müəyyənləşdirilməsi üzrə konkret tövsiyyələrin formalaşmasında mühüm əhəmiyyəti ola bilər.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** bank sisteminin təşkili və tənzimlənməsi sahəsində qəbul edilmiş qanunlar, normativ - hüquqi sənədlər, bank fəaliyyətinin strateji planlaşdırmasının formalaşdırılması metodlarını, prinsiplərini və qanunauyğunluqlarını tədqiq edən xarici və ölkə alimlərin elmi əsərləri, həmçinin bank sisteminin strateji inkişafı üzrə proqramlar və konsepsiyalar təşkil edir.

Tədqiqat prosesində sistemli yanaşmadan, müqayisəli təhlildən, qrafik üsuldan, bank fəaliyyətinin səmərəliliyinin balanslaşdırılmış göstəricilər sistemindən və s. istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Mərkəzi Bankının icmalları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik məcmuələri, kommersiya banklarının hesabatları, rəsmi internet saytları, dövrü mətbuatın məlumatları və. s. təşkil etmişdir.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi:** Tədqiqat işinin əsas müddəaları və nəticələri respublika VI beynəlxalq əhəmiyyətli elmi-praktiki konfranslarda edilmiş məruzələrdə verilmişdir:

-“Banklarda strateji planlaşdırma problemi və onun tərtib olunmasının vacibliyi”, Milli iqtisadiyyatın inkişafı və səmərəliliyin yüksəldilməsi, Beynəlxalq Elmi-Praktiki konfrans, 2012-ci il.

- “Bank sektorunun maliyyə sabitliyinin statistik təhlinin bəzi məsələləri”, “Statistika və Cəmiyyət” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikası Təhsil Nazirliyi, Elmi praktik konfransin məqalə və tezisləri, 2014-cü il.

- “Banklarda Korporativ idarəetmənin təşkili və onun keyfiyyətinin monitorinqi”, Gənc alimlərin və tədqiqatçıların 19-cu ümummilli konfransı, 2015-ci il.

Tədqiqatdan irəli gələn təkliflər “Parabank” ASC-nin İdarə Heyətinə təqdim edilmiş və ondan strateji risklərin qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsi istiqamətlərinin hazırlanmasında istifadə edilmişdir (2015-ci il).

**Dissertasiya işinin quruluşu və həcmi:** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir. Onun ümumi həcmi 152 səhifədir. İşdə 5 cədvəl, 9 sxem və 4 qrafik verilmişdir. Dissertasiyanı yazılması prosesində 104 ədəbiyyatdan istifadə edilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

**1. Bankın idarəedilməsi sistemində strateji planlaşdırmanın nəzəri metodoloji əsasları.**

Strateji planlaşdırma nəinki bank həmçinin, istənilən təşkilat üçün vacibdir və dünya təcrübəsində onun haqqında geniş təsəvvür vardır. Strateji planlaşdırma strateji idarəetmənin tərkib hissəsidir və əsas məqsədi strateji təhlil vasitəsilə idarəetmə qərarlarını qəbul etməkdir. Araşdırma nəticəsində bu idarəetmə sistemi üçün müxtəlif amillərin dəyişkənliyinin nəzərə alınması, kampaniyanın daxili imkanlarının və onun inkişafına xarici amillərin təsirinin təhlil edilməsi, daxili imkanlardan daha yaxşı istifadə yollarının axtarıb tapılması və alternativ qərarların qəbul edilməsi kimi xüsusiyyətlərin xarakterik olduğu əsaslandırılmışdır.

Strateji idarəetmə konsepsiyasının işlənib hazırlanması zəruriliyini müəyyən edən amillər əsasən aşağıdaklar olmuşdur:

-sənaye-maliyyə qruplarının yaranmasına gərtirib çıxaran inteqrasiyya proseslərinin güclənməsi;

- biznesin qloballaşması nəticəsində transmilli kampaniyalar tərəfindən dünyaya bütöv bir sistem kimi baxılması, milli fərqlərin aradan qaldırılmasına üstünlüyün verilməsi və istehlakın çoğrafiyasının genişlənməsi;

- yüksək idarəetmə həlqəsinin rolunun artması;

- xarici mühitin qeyri-sabitliyinin güclənməsi, gözlənilməz dəyişikliklərin və onların əvvəlcədən müəyyənləşdirilə bilməməsi ehtimalının artması.

Müasir idarəetmə təcrübəsində operativ və strateji idarəetmə bir-birindən fərqləndirilir.

Operativ idarəetmədən fərqli olaraq strateji idarəetmədə əsasən kampaniyanın müasir vəziyyəti, kampaniyanın perspektivdə arzu və istəklərə nail olma üsulları kimi məsələlərə prioritetlik verilir. İdarəetmə sistemində strateji idarəetmə mühüm rol oynayır və strateji planda baş verən dəyişikliklərin çevik qiymətləndirilməsi və onlara daim nəzarət edilməsi starteji inkişafının formalaşdırılmasının əsas mahiyyətini təşkil edir.

Srateji idarəetmənin ilkin şərti təşkilatın inkişafı ilə bağlı konkret strateji qərarların işlənib hazırlanması və qəbul edilməsidir. Strateji qərarlar dedikdə gələcəyə istiqamətlənən və idarəetmə qərarlarının qəbulu üçün əsas yaradan, qeyri-müəyyənliklə bağlı olan idarəetmə qərarları başa düşülür.

Təcrübə göstərir ki, starteji idarəetmənin uğurla həyata keçirilməsi onun prinsiplərinin düzgün müəyyənləşdirilməsi ilə birbaşa bağlıdır. Iqtisadi ədəbiyyatda starteji idarəetmənin prinsiplərinə yanaşmalar müxtəlifdir. İşdə starteji idarəetmənin əsas prinsipləri müəyyənləşdirilir.

Strateji planlaşdırma məqsədlərinə və həll edilən vəzifələrin miqyaslığına görə bir-birindən fərqlənir. Fikrimizcə, strateji planlaşdırmanın üç əsas

funksiyasını proqnozlaşdırma, strategiyanın və biznes planlaşdırmanın işlənib hazırlanmasını bir-birindən fərqləndimək lazımdır. Strateji idarəetmə təcrübəsində strateji və taktiki planların yerinə yetirilməsini təşkil etmək məqsədilə planların müvafiq qrafikləri işlənib hazırlanır, həvəsləndirmə sistemləri tətbiq edilir, monitorinq və onların həyata keçirilməsinə nəzarət sistemləri və s. qurulur.

Bazar iqtisadiyyatının mühüm institutlarından olan banklarda inkişaf strategiyasının olmasının zəruriliyi banklara nəzarət üzrə Bazel komitəsinin tövsiyyəsində də xüsusi olaraq vurğulanır. Bu sənəddə bankın inkişaf strategiyası risk yönümlü idarəetmə sisteminin mühüm amillərdən biri kimi xarakterizə olunur. Fikrimizcə, qəbul edilmiş strateji qərarlar bankın sabit və səmərəli fəaliyyətinin əsasını təşkil edir və ona görə də hər bir bank strateji planda əlverişli mövqeyini saxlaması üçün bu məsələyə önəm verməsi olduqca zəruridir.

Bankın idarəedilməsi sisteminin mühüm ünsürü kimi strateji planlaşdırılmadan xarici ölkələrin bank təcrübəsində xeyli müddətdir ki istifadə edilir. Təcrübə göstərir ki, strateji planlaşdırmanın bank fəaliyyətinin ayrılmaz ünsürünə çevrilməsinə bu sektorda rəqabətin artması səbəb olmuşdur. Eyni zamanda bank əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi zəruriliyi, bank idarəçiliyində yeni yanaşmaların tətbiq edilməsi, maliyyə əlaqələrin güclənməsi, rəqabətin beynəlxalq səviyəyə çıxması, yeni maliyyə bazarlarının yaranması və maliyyələşdirmənin xarakterinin dəyişməsi də strateji planlaşdırmanın geniş tətbiqinə zəmin yaratmışdır. Strateji plan bilavasitə bankın gələcək fəaliyyətinin inkişaf istiqamətlərini müəyyənləşdirir və baş verə biləcək böhrandan "qaçma" imkanını yaradır və məqsədi konkert bazar şəraitində bankın fəaliyyət strategiyasını və onun əsas məqsədlərini müəyyən etməkdir.

Strateji təhlildə bir çox tədqiqatın metodlarından geniş istifadə edilir. Strateji təhlilin ən geniş yayılmış metodikası SWOT (Stronghts - güclü tərəflər, Weaknesses - zəif tərəflər, Opportunities - imkanlar, Threats - təhlükələr) təhlildir. SWOT təhlilinin məntiqi davamı fəaliyyətin maliyyə tərəflərinə diqqəti yönəltməyə imkan verən SPACE metodudur. Bu qeyd edilən metodlarla aparılan strateji təhlil bankın strateji məqsədlərini əsaslandırmağa, uzunmüddətli vəzifələri müəyyənləşdirməyə və onların həyata keçirilməsi yollarını əsaslandırmağa imkan veirir.

Bank təcrübəsində strateji planlaşdırma çoxsaylı vəzifələr yerinə yetirir. Strateji planlaşdırmada iki yanaşmanı bir-birindən fərqləndirirlər. Bunlardan biri ənənəvi yanaşamadır və o, bankın yuxarı rəhbərliyi tərəfindən strategiyasının işlənib hazırlanmasını nəzərdə tutur. Başqa sözlə desək, bu yanaşma bazarda vəziyyətin dəyişəcəyinin əvvəlcədən xəbər verilməsi konsepsiyasına əsaslanır. Bundan fərqli olaraq yeni yanaşma çoxsaylı strateji

ideyalara istiqamətlənməni nəzərdə tutur. Bu zaman bankın gələcək inkişafının müxtəlif variantları işlənib hazırlanır və onlardan ən səmərəlisi seçilir. Beləliklə, araşdırma göstərir ki, bankın strateji planlaşdırılması prosesi çoxşaxəli və eyni zamanda çoxmərhələlidir.

**2. Bankın strateji planlaşdırılmasında auditin nəzəri-praktiki məsələləri.**

Auditor fəaliyyəti həm auditor firmaları yaxud müstəqil auditorlar tərəfindən, həm də fəaliyyəti auditor yoxlanmasına məruz qalan təşkilatın ixtisaslaşmış strukturu tərəfindən həyata keçirilir. Hər iki növ auditin sonda ümumi məqsədi bir çox cəhətdən üst-üstə düşür ki, bu da nəzarətdir. Lakin onların fəaliyyətinin məzmununda və xarakterində mühüm fərqlər vardır.

Kənar (xarici) auditlə müqayisədə daxili auditin başqa xüsusiyyəti, təyinatı və təşkili qaydası vardır. Ümumi qəbul edilmiş qaydaya əsasən daxili auditin ümumi vəzifəsi təşkilata vəzifə və funksiyalarını səmərəli yerinə yetirməkdə kömək etməkdir. Auditin nəticələri və onların qiymətləndirilməsi audit obyekti üçün xarakterik olan daxili nəzarət sisteminin səviyyəsi haqqında müfəssəl təsəvvür əldə etməyə imkan verir. Fikrimizcə, müasir bank təcrübəsində auditin təşkilinin müəyyənləşdirilmiş ümumi prinsip və qaydalarına əsaslanaraq, mühüm əhəmiyyəti olan audit obyekti üçün nəzarətin standart sxeminin işlənib hazırlanması olduqca vacibdir və banklar strateji planda öz mövqeylərini qoruyub saxlaması üçün starateji planlaşdırmanın auditinə xüsusi önəm verilməli və bu sahənin beynəlxalq standartlarından geniş istifadə edilməlidir.

**3. Azərbaycan Respublikasında bank sektorunun cari vəziyyətinin təhlili.**

Ölkə iqtisadiyyatının modernləşdirilməsi və innovasiya yönümlüyünün gücləndirilməsi üzrə miqyaslı vəzifələrin qarşıya qoyulduğu hazırki mərhələdə bank sistemi öz fəaliyyətinin keyfiyyəti və səmərəliliyini artırmalıdır. Araşdırılan dövrdə bank sisteminin müsbət inkişaf meyli saxlanmış və bankların ölkə iqtisadiyyatında rolunu xarakterizə edən makro göstəricilərin müsbət dinamikası davam etmişdir. Rəsmi statistikanın məlumatlarına görə son illərdə bankların aktivlərinin, kapitalının, kredit portfelinin və depozitlərinin həcm və dinamikasında artım baş vermişdir.

Bank sistemi üzrə ümumilikdə aktivlərin həcmi 2009-cu ildə 11.7 mlrd. manat, 2010-cu ildə 13.3. mlrd. manat, 2011-ci ildə 14.3 mlrd. manat, 2012-ci ildə 16.5 mlrd. manat, 2013-cü ildə isə 20.4 mlrd. manat, 2014-cü ildə isə 25.2 mlrd. manat olmuşdur. 2009-cu illə müqayisədə 2013-cü ildə bank aktivlərinin həcmi 72.9%, 2012-ci illə müqayisədə isə 23.6% artmışdır. Aktivlərin ölkənin ÜDM-da payı 2009-cu ildə 33.0% təşkil etdiyi halda, 2012-ci ildə bu göstəricinin səviyyəsi 30.6% olmuş, 2013-cü ildə isə hər iki dövrlə müqayisədə dah çox, yəni 35.4% təşkil etmişdir. Bank aktivlərinin dinamikasındakı bu cür artım bank sektorunun dayanıqlı inkişafına rəvac

verən amilə çevrilmişdir. Bundan başqa bank sisteminin dayanıqlığının artırılması, risk idarəetmə potensialının gücləndirilməsi və bank risklərinin qarşısının alınması istiqamətində Mərkəzi Bankın həyata keçirdiyi makroprudensial tənzimləmə tədbirləri bank sisteminin artım tempinin iqtisadiyyatın artım tempi ilə uzlaşmasına, bank ekspansiyasının sabitləşdirilməsinə müsbət təsir göstərmişdir. Hesablamalar aktivlərin real artım tempi ilə qeyri-neft sektorunun ÜDM-nun artım tempi arasındakı fərqin xeyli azaldığını göstərir.

Ölkənin bank sisteminin aktivlərinin quruluşunda (yüksək likvidli aktivlər, maliyyə sektoruna tələblər, kreditlər, investisiyalar və s.) artım əsasən kredit portfeli üzrə müşahidə olunmuşdur. Bank sektorunun inkişafını və onun maliyyə dayanıqlğını xarakterizə edən mühüm göstəricilərdən biri bank kapitalının həcminin artması, yəni bank sisteminin kapitallaşmasıdır. Təhlil göstərir ki, 2012-ci ildə aktivlərin gəlirliliyi 0.5%-lə 1% arasında olan bankların xüsusi çəkisi 40.6%, 2013-cü idə isə artaraq 43.9% təşkil etmişdir. Ümumiyyətlə, müqayisə edilən dövrdə aktivlərin gəlirliliyi (ROA) 0.5%-dən yüksək olan bankların sayı 24-dən 30-a qalxmış, onların ümumi aktivlərdə xüsusi çəkisi isə 81%-dən 89%-ə yüksəlmişdir

Təhlil edilən dövrdə bankın mənfəətinin formalaşması və artımı bir çox amillərin təsiri altında baş vermişdir. Araşdırma göstərir ki, məcmu mənfəətinin artmasının əsas mənbəyi faiz gəlirləri olmuşdur. 2012-ci illə müqayisədə 2013-cü ildə bank sektoru üzrə xalis faiz mənfəəti 39% artmışdır. Xalis faiz mənfəətinin dinamikasına faiz gəlirləri və xərclərin artım tempi təsir göstərmişdir. Kredit portfelinin genişləndirilməsi hesabına faiz gəlirlərinin artım tempi cəlb edilmiş resurslar üzrə faiz xərclərinin artım tempini üstələmişdir. Son dövrlərdə banklar tərəfindən faiz xərclərinin optimallaşdırılması və əməliyyat səmərəliliyinin yüksəldilməsi mənfəətliyin artımına müsbət təsir göstərmişdir.

Son qlobal böhrandan sonra bank sisteminin maliyyə sabitliyinin qorunması məqsədilə beynəlxalq miqyasda yeni tənzimləmə mexanizmlərinin formalaşdırılması istiqamətində səylər artıq gücləndirilmişdir (Bazel III). Bu vəziyyət ölkənin bank sektorunun sabitliyinin yüksəldilməsini, tsiklik və riskin likvidlik çatışmazlığından asılılığın azaldılmasını, kredit portfelinin keyfiyyətinin yüksəldilməsini, korporativ idarəetmənin və risklərin idarəedilməsinin yaxşılaşdırılmasını, həmçinin kapital bazarının şəfflığının yüksəldilməsini və s. tələb edir. Odur ki, növbəti mərhələdə ölkənin bank sisteminin strateji fəaliyyət prioritetləri məhz bu çağırışlara uyğun olaraq müəyyənləşdirilməlidir. Bu zaman beynəlxalq standartlara uyğun korporativ idarəetmə sisteminin inkişaf etdirilməsi, başlıca funksional fəaliyyət sferalarının əsaslı müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, müasir və güclü insan kapitalının formalaşdırılması, ölkənin iqtisadi inkişaf strategiyasına daha fəal dəstəyin verilməsi, bank sektorunun iqtisadi

inkişafda və real sektorlarının uzunmüddətli maliyyələşdirilməsində onun rolunun artırılmasına hədəflənən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və s. kimi məsələlərə diqqət yetirilməsi zəruridir.

Ölkənin bank sektorunda fəaliyət göstərən digər kommersiya bankları kimi "Kapital Bank" ASC-də əhalinin və ölkə iqtisadiyyatının maliyyə vəsaitlərinə tələbinin təmin edilməsində müəyyən rol oynayır. Bankın fəaliyyətini xarakterizə edən göstəricilər (aktivin, kredit porfelinin, kapitalın, xalis mənfəətin və s. həcmi) üzrə Kapital Bank reytingdə ön sıralardadır.

Ölkədə baş verən devalvasiya prosesindən sonra kommersiya banklarının fəaliyyətini xarakterizə edən göstəriclərin səviyyə və dinamikasında dəyişikliklər baş vermişdir ki, bu da onların reytinqinə öz təsirini göstərmişdir. Bankın gəlirliliyini və sabitliyini təmin edən əsas əməliyyatlardan biri kreditlərin verilməsidir. Bank fiziki və hüquqi şəxslərə kreditlər verərək özünün kredit portfelini formalaşdırır. 2011-ci ildə bank tərəfindən müştərilərə verilən kreditlərin ümumi məbləği 894.3 mln. manat, 2014-cü ildə 925.7 mln. manat 2015-ci ildə isə əvvəlki dövrlə müqayisədə 27.8% artaraq 1182.4 mln manat təşkil etmişdir. Göründüyü kimi təhlil edilən dövrdə bankın müştərilərə, o cümlədən həm fiziki şəxslərə və iqtisadiyyatın ayrı-ayrı sahələrinə verdiyi kreditlərin həcmində davamlı artım olmuşdur. Bunu 1 saylı xətti qarafik daha əyani göstərir.

2011-ci illə müqayisədə 2015-cü ildə bank tərəfindən fiziki şəxslərə verilən kreditlərin həcmi təxminən 20 dəfə, 2013-cü illə müqayisədə 2.2 dəfə, 2014-cü illə müqayisədə isə 34.4% artmışdır.




*Şəkil 1. 2011-2015-ci illərdə Kapital Bank ASC-nin müşətilərə verdiyi kreditin dinamikası, min. manat* (www.kapitalbank.az)

“Kapital Bank” ASC - iqtisadiyyat sahələrinin kreditləşməsində də mühüm rol oynamışdır. Belə ki, bank tərəfindən iqtisadiyyatın bir sıra sahələrinə verdiyi kreditlərin həcmi 2011-ci ildə 868.2 mln. manat, 2014-cü ildə 519.5 mln. manat, 2015-ci ildə isə 636.6 mln. manat olmuşdur. 2011-ci illə müqayisədə 2015-ci ildə bu istiqamətdə yönəldilən kreditlərin həcmi 26.7% azalmış, 2014-cü ilə nisbətən isə əksinə 22.56% artmışdır. Göründüyü kimi iqtisadiyyat sahələrinin maliyyələşdirilməsinə yönəldilən kreditlərin həcminin artım tempi fiziki şəxslərə verilən kreditlərin həcminin artım tempi ilə müqayisədə xeyli geri qalır.

2011-2015-ci ilərdə müşətilərə verilən kreditlərin quruluşunda da mühüm meyllər müşahidə edilmişdir (Cədvəl 1). Belə ki, 2011-ci ildə müştərilərə verilən kreditlərin 3%-i fiziki şəxslərin, 97.7%-i isə iqtisadiyyatın sahələrinin payına düşmüşdür.

Cədvəl 1.

2011-2015-ci illərdə Kapital Bank ASC-nin müştərilərə verdiyi kreditlərin quruluşu

| Kreditlərin bölgüsü | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Fiziki şəxslər** | **3.0** | **15.3** | **31.7** | **43.9** | **46.1** |
| **İqtisadi sahələr üzrə** | | | | | |
| İstehsal | 10.0 | 35.1 | 40.4 | 28.3 | 33.7 |
| Tikinti | 46.4 | 40.2 | 40.6 | 49.6 | 17.1 |
| Ticarət və xidmətlər | 6.2 | 8.4 | 6.2 | 9.5 | 12.1 |
| Nəqliyyat | 3.2 | 4.1 | 4.8 | 5.1 | 29.0 |
| Kənd təsərrüfatı və qida məhsullarının emalı | 32.1 | 4.8 | 4.8 | 5.5 | 4.1 |
| Telekommunikasiya | 1.1 | 1.6 | 2.1 | 0.2 | 3.0 |
| Enerji | 0.0 | 4.7 | 0.0. | 0.3 | 0.0 |
| Digər | 1.0 | 1.1 | 1.1 | 1.5 | 1.0 |
| **Yekun** | **97.0** | **84.7** | **68.3** | **56.1** | **53.9** |
| **Müştərilərə verilən kreditlər cəmi** | **100.0** | **100.0** | **100.0** | **100.0** | **100.0** |

(Mənbə: www.kapitalbank.az)

2012-ci ildə bu bölgü müvafiq olaraq 15.3% və 84.7%, 2013-cü ildə 31.7% və 68.3%, 2014-cü ildə 43.9% və 56.1%, 2015-ci ildə isə müvafiq olaraq 46.1% və 53.9% təşkil etmişdir. Göründüyü kimi, 2011-ci illə müqayisədə 2015-ci ildə fiziki şəxslərə verilən kreditlərin xüsusi çəkisi 3%-dən, 46.1%-ə, yəni 43.1 bənd artmışdır.

Bu dövrdə istehsal və tikinti sahələrinə verilən kreditlər üstünlük təşkil etmişdir. 2011-ci ildə istehsal sahəsinə verilən kreditlərin həcmi 86.1mln. manat, yəni ümumi kreditlərin 10%-ni, 2014-cü ildə 146.1 mln. manat, yəni 28.3%, 2015-ci ildə hər iki dövrlə müqayisədə daha çox, yəni 214.7 mln. manat (ümumi kreditlərin 33.7%-i), təşkil etmişdir. Müqayisə edilən dövrdə tikinti sahəsində bu göstəricilərin səviyyəsi müvafiq olaraq 2011-ci ildə 402.1 mln manat (46.4%), 2014-cü ildə 257.5 mln. manat (49.6%), 2015-ci ildə isə 109.3 mln .manat (17.1%) olmuşdur. 2011-ci ildə bankın verdiyi kreditlərin 56.4%, 2015-ci ildə isə 50.8%-i istehsal və tikinti sahələrinin payına düşmüşdür. Beləliklə, araşdırma göstərir ki, "Kapital Bank" bütün müştəri qrupları üçün geniş xidmətlər dairəsini təklif edərək, ölkənin sosial və iqtisadi həyatında fəal iştirak etmişdir. Əlbəttə ki, belə fəaliyyət istiqamətlərinin formalaşdırılması bankın strateji inkişafının, xüsusilə maliyyə strategiyasının səmərəliliyindən əhəmiyyətli dərəcədə asılıdr. Bankın maliyyə səmərəliliyini qiymətləndirmək üçün zərui məlumatları 2 saylı cədvəldə verək (Cədvəl 2).

Cədvəl 2.

2011-2015-ci illərdə Kapital Bank ASC-nin fəaliyyətinin əsas göstəriciləri, mln manat

| Göstəricilər | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2014-cü ilə nisbətən 2015-ci ildə, % |
|---|---|---|---|---|---|---|
| Aktivlər | 1222.9 | 1103.9 | 1054.2 | 1375.3 | 2017.4 | 46.7 |
| Kapital | 92.4 | 113.9 | 177.8 | 294.4 | 292.4 | -0.7 |
| Xalis mənfəət | 2.2 | 11.1 | 33.0 | 67.3 | 61.9 | -8.0 |
| Faiz gəlirləri | 49.0 | 51.8 | 62.8 | 127.7 | 189.5 | 48.4 |
| Xalis faiz gəlirləri | 20.2 | 19.5 | 37.3 | 92.5 | 128.1 | 38.5 |
| Qeyri-faiz gəlirləri | 49.3 | 54.4 | 59.9 | 64.9 | 91.5 | 41.0 |
| Likvidli aktivlər | 687.0 | 773.0 | 837.4 | 997.7 | 1353.0 | 35.6 |
| ROA (aktivlərin rentabelliyi) % | 0.2 | 1.0 | 3.1 | 4.9 | 3.1 | -1.8b |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ROE (şəxsi kapitalın rentabelliyi),% | 2.4 | 9.7 | 18.6 | 23.1 | 21.2 | -1.9b |
| Likvidli aktivlər/ ümumi aktivlər, % | 56.2 | 70.0 | 79.4 | 72.3 | 67.1 | -5.2 |
| Kapitalın kifayətliliyi əmsalı, (1-ci dərəcəli kapital) % | 11.3 | 12.1 | 16.0 | 20.2 | 14.7 | -5.5b |
| Kapitalın kifayətliliyi əmsalı, (cəmi kapital) % | 12.4 | 14.7 | 19.6 | 27.8 | 19.5 | -8.3b |

(Mənbə: www.kapitalbank.az)

Bankın fəaliyyətini və maliyyə strategiyasının səmərəliliyini xarakterizə edən əsas göstəriciləri özündə əks etdirən 2 saylı cədvəlin məlumatlarından göründüyü kimi bankın kapitalının həcmi 2011-ci ilə nisbətən 2015-ci ildə təxminən 3.2 dəfə artaraq 292.4 mln. manat təşkil etmişdir. 2011-2014-cü illərdə bankın kapitalının həcmi davamlı olaraq artmışdır. Lakin 2014-cü ilə nisbətən 2015-ci ildə bankın kapitalının həcmi çüzi olaraq, yəni 0.7% azalmışdır.

Bu dövrdə bankın aktivlərinin həcmi nəzərəçarpacaq dərəcədə artmışdır. Belə ki, 2014-cü illə müqayisədə 2015-ci ildə aktivlərin həcminə 46.7% -lik artım xas olmuşdur. Müqayisə edilən dövrdə faiz gəlirləri 48.4%, qeyri-faiz gəlirləri 41%, xalis faiz gəlirləri 38.5%, likvidli aktivlər isə 35.6% artmışdır. Balans məlumatlarından göründüyü kimi aktivlərin tərkibində kredit portfelinin payı yüksəkdir. Belə ki, bu aktivin payı 2014-cü ildə 63.9%, 2015-ci ildə 54.7% təşkil etmişdir. Aktiv və öhdəliklərin quruluşunun təhlilinin bank əməliyyatlarının difersifikasiyası baxımından mühüm əhəmiyyəti vardır. Bu cür yanaşma bankın bir tərəfli inkişafının təhlükəli meyllərini aşkar etməyə imkan verir. Təhlil edilən dövrdə bankın öhdəliklərinin həcmi artmışdır. 2014-cü ildə onun həcmi 1081 mln. manat, 2015-ci ildə 1725 isə mln. manat olmuşdur, yəni 2014-cü ilə nisbətən 2015-ci ildə 59.6% artmışdır. Bankın fəaliyyətinin və maliyyə strategiyasının keyfiyyətini və səmərəliliyini xarakterizə edən göstəricilərin səviyyəsinin son illərlə müqayisədə aşağı düşməsi ölkənin pul-kredit sistemində müşahidə edilən mənfi meyllərlə və xarici mühit amillərinin mümkün təsirlərini qabaqcadan nəzərə almağa qadir səmərəli strategiyanın olmaması ilə bağlı olmuşdur.

Beləliklə, araşdırma göstərir ki, sön dövrlərdə ölkədə iqtisadi vəziyyətin, xüsusilə pul-kredit və maliyyə sistemində baş verən hadisələr "Kapital Bank" ASC-nin fəaliyyətini xarakterizə edən bəzi göstəricilərin dəyişməsinə gətirib çıxarmışdır. Lakin bir sıra göstəricilər bankın fəaliyyətində sabitliyin, inkişaf və artım üçün ehtiyatlarının olduğunu göstərir. Belə şəraitdə bankın maliyyə strategiyasının səmərəliliyinin artırılması və bu əsasda bank əməliyyatlarının diversifikasiya dərəcəsinin yüksəldilməsi zəruridir.

**4. Bank fəaliyyətinin strateji planlaşdırılmasının auditinin təşkilinin müasir vəziyyəti.**

Azərbaycan iqtisadiyyatının bazar prinsipləri əsasında inkişafı ölkədə auditin təşəkkülünə əsas yaratmışdır. Bu dövrdən sonra ölkəmizdə auditin inkişafına əlverişli zəmin yaranmış və onun fəaliyyət dairəsi xeyli genişlənmişdir. Bu sahədə ilk addım 1991-ci ilin iyulun 31-də Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Təsərrüfat hesablı Auditor Mərkəzi yaradılması haqqında" qərar qəbul etməsi olmuşdur. Həmin qərarda qeyd olunurdu ki, iqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar olaraq respublikada audit xidmətlərinə ehtiyacı olan coxsaylı assosasiyalar, konsernlər, səhmdar cəmiyyətləri, icarə kollektivləri və kooperativlər yaradılır. Bunlarla yanaşı nazirliklərin və baş idarələrin tabeliyindən çıxmaq hüququ qazanan müstəqil dövlət müəssisələrinin nəzarət-təftiş aparatının xidmətlərindən istifadə etmək inkanı olmur. Buna görə də müstəqil audit xidmətinin yaradılmasına ehtiyac yaranmışdır. Hazırda Auditorlar Palatası ölkəmizdə auditor fəaliyyətini tənzimləməklə yanaşı, bu sahənin inkişafına, təkmilləşdirilməsinə dair mütəmadi tədbirlər sistemi hazırlayaraq dövlətin təsərrüfat subyektlərinin və auditorların mənafeyinin müdafiəsini təmin edir və audit xidmətinin beynəlxalq standartlara uyğun qurulması istiqamətində prakitki işlər görür.

Bazar iqtisadiyyatı material, əmək və maliyyə resurslarının səfərbər edilməsi və onlardan səmərəli istifadə olunmasını, həmçinin qəbul edilən strateji qərarların əsaslandırılmasını tələb edir. Bu məsələlərin həllində digər idarəetmə ünsürləri ilə yanaşı audit xidməti və nəzarətinin də rolu böyükdür.

Daxili auditin səmərəli funksiyalarının yaradılması məqsədilə Bank nəzarəti üzrə Bazel Komitəsinin birbaşa tövsiyyələrinin olmasına baxmayaraq ölkə banklarında daxili auditin təşkilinin qanunverici və normativ-hüquqi bazasının araşdırılması banklarda daxili auditə diqqətin az yönəldildiyini göstərir. Elə bunun nəticəsidir ki, ölkənin bank sistemində onun həm cari, həm də strateji fəaliyyətinin bütün tərəflərini kompleks halda özündə əks etdirən daxili bank auditi və nəzarətinin dəqiq konsepsiyası fomalaşmamışdır.

Bank fəaliyyətinin əsas istiqamətlərindən biri səmərəli korporativ idareetmə sisteminin yaradılmasıdır. Bankın strateji inkişaf sistemində daxili auditin rolu böyükdür və ona görə də strateji planların və uzunmüddətli

məqsədlərin formalaşdırılmasında, onların həyata keçirilmısində və monitorinqində daxili auditorlar fəal iştirak etməlidir. Fikrimizcə, bankın idarəedilməsinin strateji səviyyəsində auditin yerinə yetirdiyi vəzifələrin müəyyənləşdirilməsi risk-menecment strategiyası sahəsində qabaqcıl təcrübəyə əsaslanmalıdır.

Bankın strateji məqsədlərə nail olması ilə bağlı risklərin daxili auditi korporativ idarəetmə sistemində mühüm rol oynayır. Daxili audit korporativ idarəetmə, təşkilatın əməliyyat fəaliyyəti və onun informasiya sistemləri ilə bağlı riskləri qiymətləndirməlidir. Bu zaman bankın strateji məqsədlərə nail olma, maliyyə-təsərrüfat fəaliyyəti haqqında informasiyanın etibarlılığı və tamlığı, fəaliyyət proqramlarının səmərəliliyi və nəticəliliyi, aktivlərin saxlanması, qanunların, normativ aktların, müqavilə öhdəliklərinin tələblərinə uyğunluğu və s. kimi məsələlər qiymətləndirmə obyektləri kimi prioritetlik təşkil etməlidir. Deməli, makrosəviyyədə cari və gözlənilən dəyişikliyin sürətini, bank sektorunda strateji planda rəqabət mühitinin kəskinləşdiyini və ölkə iqtisadiyyatının yeni keyfiyyət mərhələsinə keçməsini nəzərə alaraq ölkənin bir çox banklarına xas olan daxili auditin ənənələrinin dəyişməsi vacibdir.

Dəyişən müasir dünyada bankların iştirakı ilə adekvat korporativ münasibətlər sisteminin yaradılması kredit təşkilatlarının yaşamasının, bank sisteminin sabitliyinin və iqtisadiyyatın uğurlu inkişafının zəruri şərtidir. Bütün bunlar banklarda korporativ münasibətlərin idarəedilməsi prosesinin və onların tənzimlənməsini bu sahədə sistemləşdirilmiş və qiymətləndirilmiş dünya təcrübəsini nəzərə almaqla təkmilləşdirilməsini, həmçinin onların səmərəli inkişafı üçün infrastrukturun və şəraitin formalaşdırılımasını tələb edir. Bank sektorunun maliyyə sabitliyinin təmin edilməsi və onun potensialının daimi artırılması banklarda səmərəli və şəffaf, beynəlxalq standartlara uyğun idarəetmə və hesabatlıq sisteminin təşkilindən, bankın idarəetmə sisteminin mühüm komponenti kimi çıxış edən əsaslandırılmış strateji planlaşdırmanın olmasından, həmçinin daxili nəzarətin və risklərin idarə olunmasının səmərəliliyindən birbaşa asılıdır.

**5. Banklarda korporativ idarəetmənin təşkilinin beynəlxalq təcrübəsi.**

Ölkə banklarında korporativ idarəetmənin tətbiqinin qanunvericilik bazasını bankların təşkili və tənzimlənməsinin hüquqi əsaslarını müəyyən edən qanunlar, xüsusilə Azərbaycan Respublikası Mərkəzi Bankının “Banklarda korporativ idarəetmə standartları” adlı sənəd təşkil edir. Bu sənəd 3 iyun 2013-cü ildə qəbul edilmişdir. Təqdirəlayiq haldır ki, ölkə banklarında korporativ idarəetmənin geniş tətbiqinə imkan verən bu sənəd Bank nəzarəti üzrə Bazel Komitəsinin “Korporativ idarəetmənin təkmilləşdirilməsi üzrə

prinsipləri”nə uyğun olaraq beynəlxalq korporativ idarəetmə təcrübəsini özündə əks etdirir.

Fikrimizcə, korporativ idarəetmənin auditi üzrə analitik hesabata aşağıdakı ünsürlər daxil edilə bilər:

-bank üçün korporativ idarəetmənin praktik komponentlərinin iqtisadi və idarəetmə mahiyyətinin təsviri;

-bu sahədə qabaqcıl standartların həyata keçirilməsi təcrübəsinin uyğunluğunun qiymətləndirilməsi;

- korporativ idarəetmənin bu və ya digər komponentinin reytinq agentliklərinin tələbləri baxımından əhəmiyyətliliyinin qiymətləndirilməsi;

-korporativ idarəetmə təcrübəsinin oxşar banklarla müqayisəsi;

-korporativ idarəetmə təcrübəsinin mərhələlərlə təkmilləşdirilməsi məqsədilə kompleks planın hazırlanması üşün tövsiyyələr.

Korporativ idarəetmənin auditinin həyata keçirilməsi prosesi bankda korporativ idarəetmənin yaxşılaşdırılması üzrə kompleks işlərin məzmunu və ardıcıllığı ilə müəyyən edilir. Audit, onun ortamüddətli və uzunmüddətli strategiyası, onların müxtəlif variantlarının uzlaşdırılması, əsas mülkiyyətçilərin maraqları, qanunvericiliyi, maliyyə infrastrukturu institutlarının tələbləri, investorların prioritet qrupları əsasında həyata keçirilir. Bankın startegiyasını hazırlayarkən əsas mülkiyyətçilərin mövqeyi müəyyənedici olduğuna görə, auditin həyata keçirilməsi məqsədləri və vəzifələri formalaşdırılarkən mülkiyyətçilərin mövqeyinə prioritetiklik verilməlidir. Odur ki, həmin prosesin səmərəliliyinin artırılması üçün bunun nəzərə alınması vacibdir. Qeyd etdiyimiz kimi korporativ idarəetmənin auditi banka malliyyə-iqtisadi münasibətlərin yeni keyfiyyət mərhələsinə keçməyə və onun starteji məqsədlərinə nail olmağa kömək edən mühüm istiqamətdir. Lakin bu istiqamətin əsas problemlərindən biri korporativ idarəetmənin keyfiyyətinə nəzarəti və onun monitorinqini həyata keçirən kifayət qədər ixtisaslı mütəxəssislərin və eyni zamanda korporativ idarəetmə məcəlləsinin olmamasıdır.

Bazar iqtisadiyyatının inkişafı və onun fəaliyyət priunsiplərinin ölkə iqtisadiyyatına dərin nüfuz etməsi, dünya iqtisadiyyatında müşahidə edilən meyllərin bank sektorunun qarşısında bir sıra yeni tələblər qoyması və ölkə iqtisadiyyatının inkişaf strategiyasında mühüm keyfiyyət dəyişikliklərinə nail olunması üzrə müəyyənləşdirilmiş hədəflər banklarda daxili auditin funksiyalarının təkmilləşdirilməsini, onun beynəlxalq standartlarla uzlaşdırılmasını, bir sözlə onların idarəedilməsinə yeni baxışın formalaşdırılmasını zəruri etmişdir. Deməli, bankın idarəedilməsi sistemində daxili audit xidmətinin rolunun artırılmsı və dəyişməsi reallıqdır və gercəkliyin tələbidir.

Ona görə də bankda strategiyanın işlənib hazırlanması və tətbiqi prosesi ilə yanaşı strateji planlaşdırmanın müntəzəm auditinin təşkili də vacibdir.

Daxili audit işinin məqsəd və vəzifələri əsasən risklərin idarə olunması, bank əməliyyatlarının və proseslərinin tətbiqi, keyfiyyət prosedurları, aktivlərin qorunması, uçot məlumatlarının adekvatlığı kimi sahələrdə bankın fəaliyyətinin yoxlanılmasından, qiymətləndirilməsindən, Müşahidə Şurasına müvafiq hesabatların verilməsindən və qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə, Mərkəzi Bankın normativ xarakterli aktlarına və göstərişlərinə riayət olunmasına nəzarət edilməsindən ibarətdir.

Onu da qeyd edək ki, Azərbaycanda mövcud olan bankların böyük əksəriyyəti daxili auditi AR Maliyyə Nazirliyi və ya Mərkəzi Bankın təlimatlarına və tələblərinə uyğun standartlarla həyata keçirir ki, bu da bankın inkişafında auditin rolunun daha az səmərəli olmasi kimi dəyərləndirilə bilər.

Bank nəzarəti üzrə Bazel Komitəsinin məsləhətverici sənədində əks olunmuş müddəaları nəzərə alaraq, bizim fikrimizcə aşağıdakıların həyata keçirilməsi zəruridir:

- daxili auditin funksiyalarına aid olan daxili sənədlərə yenidən baxıb, onları beynəlxalq standartlara və normativ sənədlərə uyğunlaşdırmaq;
- bankın digər strukturları ilə qarşılıqlı fəaliyyətdə daxili auditin funksiya və vəzifələrini dəqiqləşdirmək;
- daxili auditin müstəqilliyinə tələbləri yüksəltmək;
- daxili auditin keyfiyyətinin yüksəldilməsi proqramını işləyib hazırlamaq;
- daxili auditin fəaliyyətinin qiymətləndirilməsini müntəzəm həyata keçirmək;
- tənzimləyici orqanlarla səmərəli qarşılıqlı münasibətləri qurmaq və s.

Bank nəzarəti üzrə Bazel Komitəsinin məsləhətverici sənədlərində qeyd edilən prinsiplərin bank sektoru subyektlərinin fəaliyyətinin daxili auditini təşkil edərkən nəzərə alınması onun keyfiyyətinin yüksəldilməsinə və beynəlxalq standartlarla uzlaşdırılmasına imkan verə bilər.

**6. Bank fəaliyyətində strateji risklərin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri**

Müasir dövrdə bank sektorunda rəqabətin güclənməsi və risk yönümlü idarəetmə modelinin formalaşdırılması zəruriliyi auditin fəaliyyət istiqamətlərində strateji məqsədlərinin qiymətləndirilməsini ön plana çəkir. Strateji planlaşdırma bankın gələcək inkişaf hədəflərini müəyyənləşdirməklə onun idarəedilməsi sisteminin əsas proseslərindən biri kimi çıxış edir. İnkişaf istiqamətlərinin seçilməsi, makroiqtisadi konyukturanın müxtəlif variantlarında bankın davranış modelinin işlənib hazırlanması, risklərin minimumlaşdırılması, bankın inkişafı üçün zəruri olan resursların mövcudluğunun yoxlanması, bankın rəqabət qabliyyətliyinin artımına səbəb olan strateji layihələrin və təşəbbüslərin həyata keçirilməsi və s. kimi məsələlər strateji planlaşdırmanın vəziyyətindən asılıdır və ona görə də bu bank rəhbərliyinin daimi

diqqət mərkəzindədir. Bankda inkişaf strategiyasının işlənib hazırlanması və tətbiqi prosesi ilə yanaşı onun üzərində daimi auditin təşkili də zəruridir. Strateji planlaşdırmanın auditi strategiyanın həyat qabliyyətliyini qiymətləndirməklə, bankın korporativ strategiyasında göstərilmiş çərçivələrə uyğun olaraq idarəetmə qərarları qəbul edilənə qədər strateji risklərin minimumlaşdırılmalıdır.

Bazar şəraitində fəaliyyət göstərən bankların fəaliyyətinin əsas məqsədi öz xərclərini optimallaşdıraraq mənfəəti maksimumlaşdırmaqdır. Qeyri-müəyyənlik şəraitində öz funksiyalarının həyata keçirən digər bazar subyektləri kimi banklar da çoxlu sayda risklərə məruz qalır. Həm biznes, həm də ictimai əhəmiyyətli funksiyalar yerinə yetirən banklar tərəfindən öz risklərinin müəyyən edilməsinin və onların səmərəli idarəedilməsinin yalnız bankın özü üçün deyil, həm də digər xarici maraqlı tərəflər üçün (Mərkəzi Bank, maliyyə bazarının iştirakçıları, müştərilər və s.) mühüm əhəmiyyəti vardır.

Qeyri-müəyyənliyin mənfi nəticələrinin qabaqcadan müəyyənləşdirilməsi və azaldılması risklərin idarəedilməsinin mahiyyətini təşkil edir. Risk və gəlirlilik anlayışları risklərin idarəedilməsinin müasir konsepsiyasının əsasıdır. Qeyri-müəyyənlik şəraitində menecerin başlıca vəzifəsi riskdən qaçmaq deyil, onu qabaqcadan görmək və onun mümkün mənfi təsirlərinin minimum səviyyəyə qədər azaltmaq, ya da ümumiyyətlə onu kənarlaşdırmaqdır. Müasir təsərrüfat fəaliyyətində risk-menecmentin tətbiqi ilə bağlı üç əsas fikir vardır. Birincisi, risk vəziyyətində iqtisadi subyektlərin fəaliyyət nəticələrini aşkar etmək, ikincisi, bu fəaliyyətin mümkün mənfi nəticələrinə uyğunlaşma bacarığı, üçüncüsü, qəbul edilən fəaliyyətin ehtimal edilən mənfi nəticələrini neytrallaşdıran yaxud kompensasiya edən tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi.

Bank öz funksiyalarını həyata keçirərkən həm ümumi xarakterli (çoxlu sayda iqtisadi subyektlərə xas olan), həm də bankların fəaliyyət xüsusiyyətlərindən irəli gələn və yalnız bank sektoruna xas olan xüsusi risklərlə qarşılaşır. Banklar aktivlərin cəlb edilməsi və sərbəst vəsaitlərin yerləşdirilməsi üzrə əməliyyatlar həyata keçirərkən öz üzərlərinə müəyyən dərəcəli risklər götürülər ki, bunlar da bankların fəaliyyətinə, maliyyə bazarının və bütövlükdə iqtisaiyyatın vəziyyətinə təsir göstərir. Bank risklərini üç qrupda - maliyyə, funksional və xarici risklər - birəşdirmək olar.

İqtisadi inkişafın müasir mərhələsində innovasiyalı iqtisadiyyatın inkişaf strategiyasının həyata keçirilməsində bankların roluna böyük önəm verilir. Belə ki, ilk növbədə elm tutumlu sahələr əsasında yüksək və sabit iqtisadi artım tempini təmin edən uzunmüddətli sənaye və struktur siyasətinin formalaşdırılmalıdır ki, bu da kommersiya banklarının maliyyə sabitliyinin qoruub saxlanması və bütövlükdə bank sisteminin səmərəli fəaliyyətini tələb edir.

İnnovasiya iqtisadiyyatın formalaşdırılmasının əsas problemlərindən biri maliyyə resurslarının məhdudluğudur. Ona görə də iqtisadiyyatın uzunmüddətli kreditləşdirilməsində bank resurslarından istifadə edilməsi vacibdir. Bu, investisiya layihələrini kreditləşdirərkən yaranan bank risklərinin tənzimlənməsinin səmərəli sisteminin yaradılmasını tələb edir. İnvestisiya fəaliyyətinin xüsusiyyətlərini nəzərə alaraq bank risklərinin tənzimlənməsinin əsas prinsiplərini müəyyənləşdirmək olar. Fikrimizcə, bu prinsiplərə differensiallıq, fasiləsizlik, komplekslik, çeviklik və qeyri-ənənvi metodlara yönəlik (autsorsinq - bank risklərinin tənzimlənməsi üzrə funksiyaların bir hissəsinin bu sahədə xüsusi biliklərə malik olan kənar təşkilatlara ötürülməsi, françayzinq və s.) aid etmək olar.

Risklərin tənzimlənməsi səmərəliliyinin yüksəldilməsi kommersiya banklarının remaliyyələşdirilməsinin inkişafına iki istiqamətdə kömək edə bilər. Birincisi, investisiya layihələrini həyata keçirmək üçün Mərkəzi Bank tərəfindən kommersiya banklarının uzunmüddətli məqsədli kreditəşdirməsidir. İkincisi, investisiya kreditlərinin verilməsinin təşkili formaarının (sindikatlaşdırılması  syndicated loin) və maliyyələşdirmənin innoasiya formalarının (sekurtizasiyası - securities) mükəmməl mexanizminin yaradılmasıdır.

Müəyyənləşdirilmiş strateji hədəflərə nail olmaq üçün risklərin, xüusilə strateji riskin səmərəli idarə edilməsi mexanizminin formalaşdırılması mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir.

Bank fəaliyyətinin digər riskləri ilə müqayisədə strateji riskin fərqləndirici xüsusiyyəti bankın inkişaf strategiyasının həyata keçirilməsinə istiqamətlənən qərarlarla (onların olmaması) əlaqədar yaranmasıdır.

Tədqiqat işinidə strateji risklərin idarəedilməsi sisteminin təşkilinin əsas istiqamətləri formalaşdırılır. Belə yanaşma əsasında bankda risklərin idarəedilməsi siteminin formalaşdırılması risk yaradacaq amillərin aşkar edilməsinə və daha səmərəli şəkildə idarə edilməsinə imkan verə bilər.

**7. Banklarda strateji planlaşdırmanın monitorinqinin təkmilləşdirilməsi.**

Müasir dövrdə bank sektorunun sabitliyinin qorunub saxlanması olduqca aktualdır ona görə ki, maliyyə sektorunda baş verən dəyişiklik ölənin iqtisadi inkişafına təsir göstərir. Bütövlükdə bank sisteminin sabitliyini qiymətləndirmək üçün ayrı-ayrı kommersiya bankının maliyyə baxımdan sabit bank təşkilatı kateqoriyasına aid edilməsi kriteriyasının müəyyənləşdirilməsi zəruridir.

Bank sektorunun maliyyə sabitliyini qiymətləndirərkən kapitalın, akivlərin, əməliyyatların və risklərin, gəlirliliyin, likvidliyin idarəediləsinin keyfiyyəti göstəricilərinin kompleks halda təhlil edilməsi zəruridir. Bu cür yanaşma maliyyə sabitliyi göstəricini hesablamağa və bankın hesabat formalarının məlumatları üzrə operativ olaraq ümumiləşdirici nəticələr əldə etməyə

imkan veirir. Bank statistikasında bankın maliyyə sabitliyini qiymətləndirməyə imkan verən müxtəlif reytinq modellərindən də istifadə edilir. Belə modellərdə yalnız kəmiyyət göstəricilərindən (şəxsi kapitalın kifayətliliyi, rentabellik, aktivlərin artım dinamikası, bankın işgüzar fəallıq əmsalı, kredit portfelinin dövriyyə əmsalı, kredit portfelinin təmin edilməsi, ani likvidlik əmsalı və s.) isifadə edilir.

Banklarda səmərəliliyinin qiymətləndirilməsinə mövcud yanaşma menecmentin artan təlabatlarını daha az ödəyir. Ona görə ki, o, maliyyə göstəricilərinə əsaslanır. Eyni zamanda bank biznesinin dəyərinə qeyri-maddi aktivlər də (məşhur brend, əməkdaşların bilik və təcrübələri, müştərilərə və tərəfdaşlarla münasibət, mütərəqqi texnologiyadan istiadə, dövlət orqanları ilə əlaqələr, biznesin sosial məsuliyyəti və s.) təsir göstərir. Digər mühüm problem strateji vəzifələrin yerinə yetiriləsinə nəzarətin həyata keçirilməsi çətinliyindən ibarətdir. Səmərəliliyin açar (mühüm) göstəricilər sisteminin qurulması rəhbərlərə imkan verir ki, diqqətlərini fəaliyyətin başlıca və prioritet istiqamətlərinə yönəltsin.

Səmərəliliyin balanslaşdırılmış göstəricilər dörd əsas ünsürdən, yaxud dörd "perspektivdən" istifadə etdilir. Bunlara maliyyə, müştəri, istehlakçılarla münasibət, daxili, biznes proseslərinin təşkili və perspektiv təhsil və inkişaf aiddir. Balanslaşdırılmış göstəricilər sisteminin əsas prinsipləri ieraxixlik, sistemlilik və çeviklikdir.

Beləliklə, araşdırma göstərir ki, balanslaşdırılmış göstəricilər sistemi kommersiya banklarının fəaliyyətinin monitorinqinin və strateji planlaşdırılmasının mühüm vasitəsi kimi çıxış edə bilər. Müasir dövrdə əsas məsələlərdən biri bu sistemin metodologiyasının kommersiya banklarının strateji planlaşdırılmasının konkret vəzifələrinə uyğunlaşdırılmasıdır. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, bank fəaliyyətinin əsaslandırılmış qiymətləndirilməsini həyata keçirmək üçün yalnız maliyyə göstəriciləri kifayət etmir. Həmin sistem çərçivəsində bank biznesinə aşağıdakı istiqamətlərdə yanaşıb qiymətləndirməni həyata keçirmək olar:

-birincisi, risklilik göstəriciləri və yaradılan ehtiyyatların gözlənilən itkilərinin müəyyənləşdirilməsi,

- ikincisi, bazarda bankın vəziyyətinin (müştərilərin sayı, bazarda payı və s.) müəyyənləşdirilməsi,

-üçüncüsü, daxili biznes prosersləri ilə (onların təşkili səviyyəsi və səmərəliliyi) əlaqəliliyin təmin edilməsi,

- nəhayət bankın kadr resurslarının inkişaf səviyyəsi.

Tədqiqat işində bu cür yanaşma əsasında bankın maliyyə və qeyri-maliyyə göstəricilərinin balanslaşdırılmış sistemini əldə etməyə imkan verən strateji biznes planı modelinin qurulması mərhələləri verilir.

**8. Dissertasiyanın əsas müddəaları üzrə nəticələr və təkliflər.**

Tədqiqat işində bank fəaliyyətinin strateji planlaşdırılmasında auditin rolu və onun təşkilinin nəzəri-metodoloji və praktiki aspektləri araşdırılmış, mühüm əhəmiyyəti olan aşağıdakı təkilif və tövsiyyələr formalaşdırılmışdır:

1.Müasir bank təcrübəsində auditin təşkilinin müəyyənləşdirilmiş ümumi prinsip və qaydalarına əsaslanaraq mühüm əhəmiyyəti olan audit obyekti üçün nəzarətin standart sxeminin işlənib hazırlanması olduqca vacibdir və banklar strateji planda öz mövqeylərini qoruyub saxlaması üçün starateji planlaşdırmanın auditinə xüsusi önəm verməli və bu sahənin beynəlxalq standartlarından geniş istifadə etməlidirlər.

2. Strateji planlaşdırma sistemində müəyyənləşdirilmiş məqsədlər və fəaliyyət hədəfləri prioritetliyinə və vahid istiqamətliliyinə görə sisemləşdi-ilməli və konkret həyata keçirilmə müddətləri ilə əlaqələndirilməlidir. Strateji planlaşdırma prosesində nəzərdə tutulan bütün tədbirlər bankın imkanları ilə əsaslandırılmalıdır.

3. Fikrimizcə, ölkədə və dünya təcrübəsində iqtisadiyyatın müxtəlif sektorlarının inkişaf problemlərinin həll edilməsi və bazar subyektlərinin investisiya cəlbediciliyinin artırılması məqsədilə geniş tətbiq edilən güzəştli vergi mexanizminin (vergi stimullaşdırılması) bank sektorunda da sınaqdan keçirilməsi məqsədəuyğun olardı.

4. Son qlobal böhrandan sonra bank sisteminin maliyyə sabitliyinin qorunması məqsədilə beynəlxalq miqyasda yeni tənzimləmə mexanizmlərinin formalaşdırılması istiqamətində səylər artıq gücləndirilmişdir (Bazel III). Bu vəziyyət ölkənin bank sektorunun sabitliyinin yüksəldilməsini, tsiklik və riskin likvidlik çatışmazlığından asılılığın azaldılmasını, kredit portfelinin keyfiyyətinin yüksəldilməsini, korporativ idarəetmənin və risklərin idarəedilməsinin yaxşılaşdırılmasını, həmçinin kapital bazarının şəfflığının yüksəldilməsini və s. tələb edir. Odur ki, növbəti mərhələdə ölkənin bank sisteminin strateji fəaliyyət prioritetləri məhz bu çağırışlara uyğun olaraq müəyyənləşdirilməlidir.

5. Bank nəzarəti üzrə Bazel Komitəsinin məsləhətverici sənədində əks olunmuş müddəaları nəzərə alaraq, bizim fikrimizcə aşağıdakıların həyata keçirilməsi zəruridir:

- daxili auditin funksiyalarına aid olan daxili sənədlərə yenidən baxıb, onları beynəlxalq standartlara və normativ sənədlərə uyğunlaşdırmaq,
- bankın digər strukturları ilə qarşılıqlı fəaliyyətdə daxili auditin funksiya və vəzifələrini dəqiqləşdirmək,
- daxili auditin müstəqilliyinə tələbləri yüksəltmək,
- daxili auditin keyfiyyətinin yüksəldilməsi proqramını işləyib hazırlamaq,

-daxili auditin fəaliyyətinin qiymətləndirilməsini müntəzəm həyata keçirmək,

- tənzimləyici orqanlarla səmərəli qarşılıqlı münasibətləri qurmaq və s.

6. Strateji risklərin idarəedilməsi sisteminin təşkili prosesinin aşağıdakı ümumi prinsiplərə əsaslanması məqsədəuyğundur:

- strateji riskin əlverişli səviyyəsinin müəyyənləşdirilməsi, aşkar edilməsi və qiymətləndirilməsi qaydasının müəyyən edilməsi, strateji riskin monitorinqi,

- strateji riskin əlverişli səviyyədə saxlanması üzrə tədbirlərin tətbiq edilməsi, o cümlədən riskin minimumlaşdırılmasına nəzarət,

- strateji risklərin idarə edilməsi məsələləri üzrə məşğul olan bankın struktur bölmələrə informasiyanın təqdim edilməsi qaydasının müəyyən edilməsi,

- strateji risklərin idarə edilməsinin əsas prinsiplərinin reallaşdırılması baxımından məsuliyyətin və səlahiyyətlərin bankın əlaqədar struktur bölmələri arasında bölüşdürülməsi,

- strateji risklərin idarəedilməsi səmərəliliyi üzərində nəzarətin həyata keçirilməsi.

7. Strateji risklərin idarə edilməsi sisteminin təşkilinin aşağıdakı üç əsas istiqamətdə formalaşdırmasını məqsədəuyğun hesab etmək olar:

- risk amillərinin yaranmasına yol verməyən tədbirlər sistemi (preventiv tədbirlər),

- risk amillərinin aşkar edilməsi, təhlili və qiymətləndirilməsi üzrə tədbirlər sistemi (cari tədbirlər),

- aşkar edilən risk amillərinin optimallaşdırılması, o cümlədən aradan qaldırılması üzrə tədbirlər sistemi (sonrakı tədbirlər).

8. Bank bazarında davam edən rəqabət biznes proseslərinin cari və perspektiv vəziyyətini qiymətləndirməyə və proqnozlaşdırmağa qadir adekat və real tətbiq edilən yeni analitik sistemlərdən istifadəni zəruri edir. Ona görə də qeyd edilənləri ümumiləşdirərək aşğıdakı praktiki töviyyələri formalaşdırmaq olar:

- mühüm biznes proseslərini təsvir etmək və müəyyənləşdirmək üçün balanslaşdırılmış göstəricilər sistemindən istifadə etmək,

- bankın strateji xəritəsini qurmaq və əsas məqsədlərin əhəmiyətliyinə görə ranjirləşdirilməsini həyata keçirmək,

- məqsədlərə nail olma nəticəliliyinin mühüm göstəricilərinin hesablanması metodunu müəyyən etmək və onları parametrlər kimi dinamik modelə daxil etmək.

9. Kapital Bank ASC-nin fəaliyyətinin və maliyyə strategiyasının keyfiyyətini və səmərəliliyini xarakterizə edən göstəricilərin səviyyəsinin son illərlə müqayisədə aşağı düşməsi ölkənin pul-kredit sistemində müşahidə

edilən mənfi meyllərlə yanaşı xarici mühit amillərinin mümkün təsirlərini qabaqcadan nəzərə almağa qadir səmərəli strategiyanın olmaması ilə də bağlı olmuşdur. Lakin təhlil bir sıra göstəricilər üzrə bankın fəaliyyətində sabitliyin, inkişaf və artım üçün ehtiyatlarının olduğunu göstərir. Belə şəraitdə bankın maliyyə strategiyasının səmərəliliyinin artırılması və bu əsasda bank əməliyyatlarının diversifikasiya dərəcəsinin yüksəldilməsi zəruridir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı işləri çap edilmişdir:**

1. "Banklarda strateji planlaşdırma problemi və onun tərtib olunmasının vacibliyi" (Milli iqtisadiyyatın inkişafı və səmərəliliyin yüksəldilməsi (Beynəlxalq Elmi-Praktiki konfrans) – 2012-ci il Səh.746-749)
2. "Strateji planlaşdırma bankın idarə edilməsinin və inkişafının müüm komponentidir" («Maliyyə və uçot» №12 Azərbaycan Respublikası Vergilər Nazirliyi – 2014-cü il səh. 29-32)
3. "Bank sektorunun maliyyə sabitliyinin statistik təhlinin bəzi məsələləri"( "Statistika və Cəmiyyət" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikası Təhsil Nazirliyi – Elmi praktik konfransin məqalə və tezisləri – 2014-cü il. Səh. 139-142)
4. "Azərbaycan Respublikasında bank sektorunun müasir vəziyyətinin təhlili və inkişaf perspektivləri" ("Kooperasiya" № 2(37)Azərbaycan Kooperasiya Universiteti – 2015-ci il. Səh. 122 – 129)
5. "Роль стратегического планирования в системе банковского управления и организация аудита" ("Вестник D" Полоцкого Государственного Университета № 13., г. Новополоцк, Витебская обл., Беларусь – 2015-й год. Стр.59-62.)
6. "Bank fəaliyyətində Strateji Risklərin idarəedilməsi və onun təkmilləşdirilməsi istiqamətləri" ("İpək yolu" № 3 Azərbaycan Universiteti 2015- ci il. Səh. 72-77).
7. "Banklarda Kooperativ idarəetmənin təşkili və onun keyfiyyətinin monitorinqi" (Gənc alimlərin və tədqiqatçıların 19-cu ümummilli konfransı – 2015-ci il)

**С.Ф. Гюльахмедзаде**

## Роль аудита в стратегическом планировании деятельности банка

## РЕЗЮМЕ

Диссертация состоит из введение, трех глав, вывода и списка литературы. Общий объем диссертации 152 страницы. Были даны 5 таблиц, 4 графика и 9 схем.

Во введении указывается актуальность темы диссертации, цели и задачи исследования, теоретико-методологические основы, объекты исследования, информационная база, практическое значение, и научные инновации.

Первая глава исследования называется «Теоретико-методологические вопросы стратегического планирования и его аудита в системе стратегического управления банка. В этой главе исследуются суть стратегического планирования, его роль и важность как основного компонента развития в управлении банков, а также этапы и особенности стратегического планирования в банках. В том числе исследуются, также роль, необходимость и этапы организация аудита в стратегическом планировании банков,

Вторая глава диссертации называется "Современное состояние и особенности организации аудита в стратегическом планировании Азербайджанских банков ". В этой главе на основе официальной статистики анализируется текущее состояние банковского сектора в Азербайджанской Республике, текущее состояние внедрения стратегического планирования, стандарты внедрения корпоративного управления, международная практика, а также организация аудита в стратегическом планировании,

Третья глава диссертации называется «Направления совершенствований стратегического управления и организаций аудита в банках Азербайджана». В этой главе исследуются организация внутреннего и внешнего аудита в стратегическом планировании, управление стратегических рисков в деятельности банка и совершенствование мониторинга стратегического планирования. В последствии формируются теоретически и практически значимые предложения и рекомендации.

**S.F. Gulahmedzade**

## The role of audit in the bank's strategic planning activities

## S U M M A R Y

The thesis consists of an introduction, three chapters, a conclusion and a list of bibliography. The total volume of the thesis is 152 pages which were depicted in 5 tables, 4 graphics and 9 schemes.

The relevance of the thesis topics, objectives and research tasks, theoretical - methodological foundations, aims of the research, information base, the practical values, and scientific innovation were indicated in the introduction part.

The first chapter of the research was named the "Theoretical and methodological issues of strategic planning and audit in the strategic management of the bank system”. In this chapter we have explored the essence of strategic planning as well as its role and importance as a major component in the development of the bank's management. Also, we have included the role, necessity, stagesand features of audit organization in the strategic planning of the banks.

The second chapter was named the "Current state and especially the organization of an audit in the strategic planning of Azerbaijani banks." In this chapter, based on official statistics the following were thoroughly examined- the current state in banking sector in Azerbaijan Republic, the current state of implementation of the strategic planning, the implementation of the standards of corporate governance, the international practice, the audit organization in strategic planning.

The third chapter of the dissertation is called "Areas of Improvements in strategic management and organization audit in Azerbaijani banks." It includes exploring the organization of internal and external audit in the strategic planning, managing of strategic risks in the bank's activities and improving strategic planning in monitoring as well as emerging theoretical and practical importance of the proposals and recommendations.

Kağız formatı: 60x84 1/16
Həcmi: 1,5 f.ç.v. Tirajı: 100

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102
Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГЮЛЬАХМЕДЗАДЕ САМИР ФАРМАН оглы**

# РОЛЬ АУДИТА В СТРАТЕГИЧЕСКОМ ПЛАНИРОВАНИИ ДЕЯТЕЛЬНОСТИ БАНКА

**Специальность: 5303.01 – «Бухгалтерский учет»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по экономике**

**БАКУ – 2016**